*Tarix boyu azadlıq, istiqlaliyyət uğrunda mübarizə aparan, şəhidlər verən qədim Gəncə şəhərinin adının bərpasından 35 il keçir. Ötən əsrlərdən bəri tarixçi və diyarşünasların, arxeoloq və etnoqrafların, yaxın-uzaq ellərdən Azərbaycana üz tutan səyyahların geniş maraq dünyasını zənginləşdirən Gəncə qədim, zəngin mədəniyyəti, qonaqpərvərliyi ilə tanınmış və füsunkar gözəlliyi ilə diqqəti cəlb etmişdir.*



**Gəncə qədim mədəniyyət mərkəzidir və öz qədimliyini saxlamaqla bu gün yeniləşir, gözəlləşir. Bu gün həm qədim, həm müasir Gəncə nəinki Azərbaycanın, regionun mərkəzlərindən biridir.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

# QƏDİM VƏ MÜASİR GƏNCƏNİN QURUCULUQ ÜFÜQLƏRİ

Mərd və xeyirxah gəncəlilər həmişə Gəncə adı ilə öyünmüş, onun inkişafı üçün heç nəyi əsirgəməmişlər. Tarixən Gəncənin adı bir neçə dəfə çar Rusiyası tərəfindən dəyişdirilmişdir. Qürurlu gəncəlilər tarixi yanlışların bərpası üçün uzun illər inadla mübarizə aparmış və niyyətlərinə nail olmuşlar. Bu yolda qurbanlar vermiş, yadellilərə tabe olmayıb sona qədər şərəfli mübarizə aparmış, qürurlu, azad yaşamağı hər şeydən üstün tutmuşlar...

Məhz bunun bariz nümunəsidir ki, Cümhuriyyətin torpaqlarımızda fəaliyyətə başladığı ilk yer Gəncə olmuşdur. Gəncənin həm mülayim iqlimi, həm münbit torpaqları, unikal kəhrizləri yetərincə olduğundan zəhmətkeş gəncəlilər bolluq yaratmış, bura ticarət mərkəzi kimi tanınmışdır.






Məhz buna görə bu zəngin tarixə malik qədim şəhər strateji əhəmiyyətinə görə yadelli işğalçıların diqqətini həmişə özünə cəlb etmişdir. Bu baxımdan, rus qoşunlarının komandanı Sisianovun I Aleksandra göndərdiyi məktub diqqət çəkir: "Gəncə qalası yerləşməsinə görə bütün Azərbaycanı qorxu altında saxlamaq imkanı verdiyindən onun ələ keçirilməsini Rusiya üçün çox önəmli saymağa əsas verir". Onlar Gəncəni işğal etməklə bütün Azərbaycanı qorxu altında saxlamaq imkanı əldə etməyi düşünürdülər. 1804-cü il yanvarın 3-də Orucluq bayramı günündə rus qoşunları Cavad xanın başçılıq etdiyi dəstələrin qoruduğu Gəncə üzərinə qəflətən basqın etdilər. Döyüşçüləri ilə Cavad xan sona qədər vuruşdu və 1500 nəfər döyüşçü ilə birlikdə özü və oğlu Hüseynqulu xan qəhrəmancasına həlak oldu.







Çar hökuməti bu işğalı böyük bir bayram kimi qeyd etmiş, Cavad xanın şəhərinin adını tarixdən silmək üçün ona çar I Aleksandrın arvadı Yelizavetanın adı verilmişdi. İşğalçılar bununla da kifayətlənməmiş, Gəncə qalasını, qala divarları ilə birlikdə xan sarayını uçurub yox etmiş, Gəncə xanlığını ləğv edib onu dairəyə çevirərək Gürcüstana tabe etdirmişdilər. Bir sözlə, xanlığı insanların yaddaşında xatırladan bütün atributları məhv etməyə, yer üzündən silməyə cəhd etmişdilər. Hətta Gəncə sözünü dilinə gətirən hər kəs pulla cərimə ödəməli idi. Bəli, Gəncə şəhərində dinc əhaliyə də amansızlıqla, qəddarcasına divan tutulmuşdu. Beləliklə, çar hökuməti 114 il Gəncə sözünü işlətməyə imkan vermədi. Ancaq qürurlu xalqın yaddaşlarından onu silmək mümkün olmadı. Gəncə adının yenidən rəsmi qaydada özünə qaytarılmasında Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin böyük rolu oldu. 1918-ci il 30 iyulda tarixi qərar qəbul edildi. Qərarda deyilirdi: "Yelizavetpol şəhərinin adı Gəncə və Karyagin qəzasının adı Cəbrayıl qəzası ilə əvəzlənsin". Əlamətdar hadisə olduğu üçün xalq bu qərarı razılıqla qarşılayıb, xeyli sayda qurban kəsdi. Ancaq nə yazıq ki, bu sevinc uzun sürmədi. 1920-ci ilin aprelində bolşevik Rusiyasının XI Qırmızı ordusu Vətənimizə soxuldu. Kənd və şəhərlərimizi bir tərəfdən ermənilər, digər tərəfdən bu ordu yağmalamağa başladı. "Talan həftələri" təşkil edildi, belə bir çətin vaxtda işğalçılara qarşı ən böyük üsyan yenə Gəncədə oldu. Qüvvələrin qeyri-bərabər olmasına baxmayaraq, Cahangir bəy Kazımbəyov, Cavad bəy Şıxlinski, Məhəmməd Mirzə Qacar və digərlərindən ibarət hərbi şura sona qədər mübarizə apardı. Üsyan qan içində boğuldu. Ələ keçən üsyançılara divan tutuldu. Gəncə üsyanı və sonrakı "təmizləmə" vaxtı 13 min nəfərdən çox vətənpərvər şəhid oldu. Təəssüf ki, həmvətənlərimizin bu şərəfli mübarizəsinin qəddarlıqla yatırılmasında ermənilər və ruslarla yanaşı, azərbaycanlı bolşeviklər də çox fəal iştirak etmişdilər. Ermənilər ruslarla birlikdə şəhəri 3 gün qarət etdilər. Tarixi hadisələr göstərir ki, üsyan yatırılsa da, sovet rejimi xalqın azadlıq uğrunda mübarizə ruhunu qıra bilmədi. 1935-ci ildə Moskvanın Azərbaycandakı canişini M.C.Bağırovun göstərişi ilə Gəncə şəhərinin adı yenidən dəyişdirildi.

Bu dəfə isə şəhərə Azərbaycanın işğalında, respublikamızda müstəmləkə rejiminin qurulmasında və ərazi bütövlüyümüzün parçalanmasında, torpaqlarımızda ermənilər üçün muxtar vilayət yaradılmasında böyük rolu olmuş S.M.Kirovun adı verildi. Şübhəsiz ki, respublikada o dövrdə olan rayon və şəhərlərin içərisindən Gəncənin seçilməsi təsadüfi deyildi. Çünki Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı olması, Bakının yadelli işğalçılardan - xalqımızın qəddar düşməni, bolşevik-daşnak Şaumyandan və onlarla həmfikir olanlardan azad edilməsi uğrunda ölüm-dirim mübarizəsinin bu şəhərdən başlanması, XI Qırmızı orduya qarşı qəhrəmancasına mübarizə aparılması səbəbindən xalqımızın qəlbində Gəncə uca bir taxt qurmuş, azadlıq və mübarizlik simvoluna çevrilmişdi. Xalqın qan yaddaşını silmək, "milli bolşeviklər"in sözlərilə desək, onu "simasızlaşdırmaq" siyasəti yürüdən sovet rejimi məhz bu səbəblərdən ad dəyişdirmək məsələsində Gəncə şəhərini seçmişdi.

3 aprel 1952-ci ildə respublika ərazisində iki yeni vilayət yaradıldı. Onlardan biri 33 rayonu və yeni yaradılmış Sumqayıt şəhərini əhatə edən Bakı, digəri isə Kirovabad şəhəri və 28 rayonun daxil olduğu Gəncə vilayəti oldu. Yeni yaradılan vilayətin Gəncə adlandırılmasının təşəbbüskarının kim olduğunu söyləmək çox çətindir. Ancaq respublika rəhbəri M.C.Bağırovun bu işə razılıq verməsi heç kəsdə şübhə doğurmur. Etiraf edilməlidir ki, o dövrdə bu, o qədər də asan iş deyildi. Lakin bu islahatın da ömrü uzun olmur. Stalinin vəfatı və Xruşşovun hakimiyyətə keçməsi tezliklə Azərbaycana da təsir edir.

6 aprel 1953-cü ildə M.C.Bağırov Azərbaycan KP MK-nın I katibi vəzifəsindən azad olunmuş, yerinə isə Mir Teymur Yaqubov təyin olunmuşdu. Elə həmin gün Azərbaycan KP MK-nın bürosunda "Azərbaycan SSR tərkibindəki Bakı və Gəncə vilayətlərinin ləğv edilməsi haqqında" qərar qəbul edilmişdi. Qeyd edək ki, xalqın, tarixi və mənəvi həyatı ilə bağlı yer adlarının dəyişdirilməsi XX əsrin 60-cı illərində də davam edib. Lakin Sovet dövründə rus kommunistlərinin sevimlisi olan S.M.Kirovun adı verilmiş bu qədim şəhərin əvvəlki adını özünə qaytarmaq o qədər də asan deyildi, böyük cəsarət tələb edirdi. Bu məsələdə də görkəmli ictimai-siyasi xadim, Türk dünyasının fenomeni, əbədiyaşar Heydər Əliyev dühası, ağlı, zəkası köməyə gəldi. 1980-ci ildə ulu öndərin təkidli tələbi ilə Kirovabad şəhəri iki rayona bölündü, rayonlardan birinə Gəncə, digərinə isə Kəpəz adı verildi. Həmçinin orada salınan təzə yaşayış massivi də "Yeni Gəncə" adlandırıldı. Ulu öndər Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində Gəncə adının hafizələrdən silinməsinə imkan verilmədi, bu ad yenidən səslənməyə başladı. Gəncə sözü rəsmi sənədlərdə əks olundu. Bu, şübhəsiz ki, milli şüura, düşüncəyə təsir edən böyük hadisə oldu. Kirovabad şəhərinin Gəncə ilə əvəzlənməsi yolunda həlledici addımlar isə XX yüzilliyin 80-ci illərinin ikinci yarısında atıldı.

1988-ci ilin sonu - 1989-cu ilin əvvəllərindən Gəncə adının bərpası uğrunda çağırışlar artmağa başladı. Belə ki, 1989-cu ilin sentyabr-oktyabr aylarında şəhərin adının dəyişdirilməsi məqsədilə şəhər əhalisi içərisindən imza toplama kampaniyası başladı. Millətsevər insanların istiqamətləndirdiyi bu kampaniya nəticəsində 60 minə yaxın imza toplanmışdı. Maraqlıdır ki, bu kampaniyada azərbaycanlılardan əlavə, şəhərdə yaşayan ruslar, ukraynalılar və yəhudilər də iştirak etmiş, onlar da ədalətin bərpasına tərəfdar olduqlarını bildirmişdilər. 1989-cu il dekabrın 9-da Kirovabad şəhər Xalq Deputatları Sovetinin sessiyası keçirildi. Sessiyada deputatlardan çox ziyalılar, qonaqlar iştirak edirdi. Hamının maraqla iştirak etdiyi bu iclasda şəhərin adının bərpası məsələsi müzakirə olunmuş və qərara alınmışdı ki, bununla bağlı yuxarı instansiyalara məktub yazılsın, bu iş üçün lazım olan vəsait toplansın. 1989-cu ilin 29 noyabrında növbəti dəfə Kirovabad Şəhər Xalq Deputatları Sovetinin sessiyasında sözügedən məsələ müzakirə olunmuşdu. Şəhər XDS İcraiyyə Komitəsi adından Nizami Xəlilov ətraflı məruzə etmişdir. Digər çıxışlardan da sonra Gəncə adının bərpası təklifi qəbul edilmiş və ertəsi gün qərar verilmişdi. Həmin ilin 30 dekabrında Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti bu qərarı təsdiq etdi. Qərarda deyilirdi: "Kirovabad şəhərinin Gəncə şəhəri adlandırılması haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fərmanı: - Gəncənin tarixi adını bərpa etmək haqqında şəhər vətəndaşlarının, əmək kollektivlərinin və respublikanın geniş ictimaiyyətinin çoxsaylı müraciətini, Kirovabad Şəhər Xalq Deputatları Sovetinin xahişini nəzərə alaraq və Azərbaycan SSR Konstitusiyasının 114-cü maddəsinə (18-ci bənd) uyğun olaraq Azərbaycan SSR Ali Sovetinin Rəyasət Heyəti qərara alır: - Kirovabad şəhəri Gəncə şəhəri adlandırılsın". 1990-cı il yanvarın 2-də bu münasibətlə Gəncədə təntənəli iclas keçirildi və xalq bunu böyük ruh yüksəkliyi ilə qarşıladı. Beləliklə, İstiqlal yürüşünün coşqun axarında xalqın ciddi təkidi ilə nəhayət, Gəncənin ulu adı özünə qaytarıldı, vətənsevər insanların illərlə uğrunda mübarizə apardığı, bu yolda təqiblərə, təzyiqlərə məruz qaldığı sonda uğurla nəticələndi.

Xoş xəbər qədim diyarın hər bucağında, hər evdə, hər ürəkdə əsl toy-bayrama çevrildi. Hətta qurban kəsildi, kimi bağ saldı, yol çəkdi, abidə ucaltdı. Azadlıq və istiqlaliyyətin ilk müjdəsi olaraq Gəncə adının qaytarılmasından sonra bir müddət fırtınalar və burulğanlar içində çalxalanan qədim şəhər xalqın təkidli tələbi və iradəsi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin müdrikliyi və uzaqgörənliyi sayəsində nicat yolunu tapdı. Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxaran ulu öndər Heydər Əliyevin səyi ilə tarixi yer adlarının bərpası istiqamətində mühüm addımlar atıldı. Gəncə ilə yanaşı, dövlətimizin apardığı milli siyasətin nəticəsində bir çox şəhər və rayonların tarixi adları bərpa edildi. Öz adı uğrunda iki əsrə yaxın davam edən mübarizədən qalib çıxan Gəncə bu gün də öz tarixinin inkişaf dönəmini böyük coşqu ilə yaşayır. Ümummilli liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində qədim şəhər elm, mədəniyyət mərkəzi olaraq dünya miqyasında tanınır, davamlı qələbələrə, zəfərlərə imza atır, qədimliyi, müasirliyi və gözəlliyi ilə bu möcüzəli diyara gələnləri heyran edir. Tarixi binalar bərpa olunur, zövqlə yeni binalar tikilir, möhtəşəm xiyabanlar, gözoxşayan parklar, yaşıllıqlar salınır. Bu gün paytaxt istiqamətindən şəhərə daxil olan hər kəs möcüzələr aləmi ilə üzləşir. Yolun sağ və sol tərəflərində ucaldılan rəmzi möhtəşəm və əzəmətli Gəncə Qala Qapıları, Arxeologiya və Etnoqrafiya Muzeyi Abidə Kompleksi qədim tarixi özündə əks etdirir. Burada hündürlüyü 65 metrdən yuxarı olan müqəddəs dövlət bayrağımız, Türk dünyasının fenomeni, ümummilli liderin əzəmətli abidəsi, müasir üslubda işıqlandırma sistemi, bir-biri ilə uzlaşan fəvvarələr, ətrafdakı yaşıllıqlar və təravətli gül-çiçəklər qalaya xüsusi görkəm, gözəllik bəxş edir. 3 km uzunluğunda zövqlə işlənmiş memarlıq elementləri hər bir insana zövq verir. Şeyx Nizaminin "Xəmsə"si əsasında yüksək zövqlə işlənmiş mənzərələr insanı valeh edir, maraqlı kompozisiyaya baxaraq şəhərə nə vaxt çatdığından belə xəbərin olmur. Uzun illər alaq basmış parklar, xiyabanlar, çayın sahilləri, dünyada ən böyük parklar cərgəsində olan köhnə adı ilə desək, "Xatirə parkı" dağılıb-getmiş, sovetlər dövründən qalma heykəl və büstlər qırılıb korlanmış, suvarma sistemi sıradan çıxmış, ağaclar qurumuşdu. Bu boş və bərbad ərazidə az müddət içərisində alternativi olmayan, ümummilli liderin adına layiq möhtəşəm Heydər Əliyev Mərkəzi, ecazkar gözəlliyə malik istirahət parkı, girişdə möhtəşəm "Zəfər tağı" ucaldılmışdır, buraya gələn qonaqlar və sakinlər bu açıq seyrangahdan şəhərin və dünyanın beş ən böyük parkı arasında yer tutan, 450 hektar sahəsi olan möhtəşəm, füsunkar Heydər Əliyev parkının mənzərəsini seyr edirlər. Burada gözəlliyi ilə insanları məftun edən möcüzəli süni "göl", balaca fidanlar üçün fantastik əyləncə mərkəzləri yaradılmışdır. Tək Gəncədən deyil, regionlardan bu istirahət məkanına on minlərlə sakin dincəlməyə gəlir, bu unikal mənzərəni seyr edir, məmnun qalır, ölkə başçısına minnətdarlıq edirlər. Bu layihələrin son dərəcədə yüksək və alternativsiz Avropa və Şərq üslubunda qurulmasına görə dövlət başçısı cənab İlham Əliyevə minnətdarlıq edirlər. Parkda gözəl bir göl, amfiteatr yaradılıb. Gölün ətrafına nadir ağaclar və dekorativ kollar əkilib, yaraşıqlı oturacaqlarla təchiz olunub.












Ecazkar gül kolları, yaşıl qazonların arasından boylanan al-əlvan gül-çiçəklər insana ruh verir, yaşamaq əzmini daha da artırır. Ölkə Prezidenti cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın daimi diqqət və qayğısı, tarixi səfərləri ilə Gəncənin siması tam dəyişmişdir. Bu sahədə görülən işlər sakinlərin rahatlığı, onların asudə vaxtlarının daha səmərəli təşkili məqsədi daşımaqla yanaşı, qədimliyi qoruyaraq Gəncənin gözəlliyinə əlavə çalarlar qatır. Ulu Gəncəni iki hissəyə bölən qədim "Gəncə" çayının sağ sahilində reallaşan möhtəşəm "Gəncəçay" Park bulvar kompleksi sakinlərin sevimli istirahət yeridir.

Bu gün dünyanı qlobal iqtisadi böhran cənginə aldığı bir vaxtda belə möhtəşəm işlərin görülməsi ölkə başçısının vətəndaşlara göstərdiyi sonsuz diqqət və qayğının bariz nümunəsidir. Mənbəyini Kiçik Qafqazdan götürmüş Gəncə çayı yaz vaxtı aşıb-daşan, şıltaqlıq edən bu təlatümlü çay qədim şəhərə gözəllik verir. Çay boyunca yeni yaradılan bulvar kompleksində geniş abadlıq-quruculuq aparılıb, yaşıllıq zolaqları salınıb, qazonlar arasından boylanan gül-çiçəklər ətrafa xüsusi təravət verir. Fəvvarələr ərazinin gözəlliyini daha da artırır. Görülən işlər sakinlərin və şəhərə gələn qonaqların rahatlığı üçün müasir istirahət guşələrinin yaradılması istiqamətində reallaşdırılan layihələrin bir hissəsidir. Yeni park, istirahət məkanı və guşələrin yaradılması, əhaliyə xidmət göstərən müasir infrastrukturun qurulması həm də Gəncənin daha da gözəlləşməsi işinin davamlı xarakter almasından və ümumilikdə, şəhərin sosial-iqtisadi inkişafından xəbər verir.

Bulvar kompleksinin uzunluğu 1,2 kilometrdir. İnşasına 2014-cü ildə başlanılan və ümumi sahəsi 34 hektar olan kompleksdə istirahət üçün hərtərəfli şərait yaradılıb, geniş işıqlandırma işləri görülüb, 15 fəvvarə və müxtəlif kompozisiyalı 10 heykəl quraşdırılıb. Çayın məcrasının hər iki tərəfində betondan ümumi uzunluğu 2,4 kilometr olan istinad divarı tikilib. Bulvarda Bayraq Meydanı, "Əli və Nino" kompleksi, Mətbuat evi, Kitab evi, Uşaq Əyləncə və Ticarət Mərkəzi, altımərtəbəli və yeddimərtəbəli üç yaşayış binası, müasir üç kafe, restoran və kinoteatr, açıq havada attraksionlar və digər sosial obyektlər inşa edilmişdir. Bunlar ecazkar bulvarın "mirvarisi"dir. Burada 1,7 kilometr uzunluğunda velosiped yolu və iki velosiped dayanacağı inşa edilib, böyük monitor quraşdırılıb, bulvar kompleksində kanalizasiya, yağış suları ötürücüsü və içməli su təchizatı sistemi əsaslı şəkildə yenidən qurulub.

Ümumiyyətlə, bu bulvar memarlığın ən son nailiyyətlərini özündə əks etdirir. Azərbaycanda ilk dəfə olaraq Qurban Səidin müəllifi olduğu "Əli və Nino" əsəri əsasında hündürlüyü 3,5 metr olan əzəmətli heykəl ucaldılmışdır, Azərbaycan və gürcü xalqlarının dostluğuna və məhəbbətinə ithaf edilən bu abidə Gürcüstanda da ucaldılıb. Abidənin möhtəşəmliyi və fərqi ondadır ki, heykəlin ətrafında süni tüstü effektləri verilmişdir. Abidənin ətrafında yaradılmış 3 fəvvarə vizual olaraq göz yaşlarını xatırladır. Heykəl Şərq üslubda, lakin modem formadadır. Qədim mədəniyyət mərkəzində klassik üslubunda yeni inşa edilmiş ölkənin ən böyük və müasir Filarmoniyası, Dram teatrı, muzeylər, nəhəng ticarət mərkəzləri istifadəyə verilib. Şəhər Ağsaqqallar Şurasının sədri, hamının sevimlisi, nəcib və xeyirxah insan olan professor Nürəddin Məmmədov Gəncənin enişli-yoxuşlu, keşməkeşli hadisələrinin gözü qarşısında baş verdiyini dilə gətirərək bildirdi ki, Gəncənin adının bərpasında əməyi olan hər kəsə minnətdardır. Əslində bu bərpanın təməlini ulu öndər Heydər Əliyev 1980-ci illərdə hakimiyyətdə olduğu dövrdə çətinliklərlə üzləşməsinə baxmayaraq, böyük uzaqgörənliyi ilə şəhəri iki rayona - Gəncə və Kəpəz rayonlarına bölünməsi ilə qoymuşdur. Məhz Heydər Əliyevin titanik səyi nəticəsində Gəncə tənəzzüldən inkişafa doğru getmiş, sənaye müəssisələri işə düşmüş, yeni infrastrukturlar yaradılmışdır. Şükürlər olsun ki, bu gün onun layiqli davamçısı, Prezident İlham Əliyevin apardığı düşünülmüş uğurlu siyasət nəticəsində Gəncə Qafqazın incisi hesab olunur. Təkcə onu demək kifayətdir ki, keçmiş sovetlər birliyində şəhərin mərkəzində, Gəncə çay ətrafında bir çox layihələr çox qısa zamanda, bir-birini tamamlayan xoşagəlimli elementlərlə başa çatdırılmışdır.

Ölkə Prezidenti cənab İlham Əliyevin Gəncəyə hər səfəri yeni-yeni üfüqlər açır. Bu isə onu göstərir ki, dövlət başçısı insan amilini daimi diqqətdə saxlayır. Sosial qayğılar öncüldür. Hər bir layihə şəxsən dövlət başçısının diqqət mərkəzindədir. Bir sözlə, tam əminliklə demək olar ki, dövlətçilik tarixində Gəncənin iqtisadi potensialının əsası Heydər Əliyevin hakimiyyəti dövründən başlayır və Azərbaycanın ikinci böyük şəhərinin sonrakı inkişafına, tərəqqisinə möhkəm zəmin, bünövrə yaradılıb.

Bunu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Gəncə şəhərinə göstərdiyi diqqət və qayğının nümunəsində də aydın görə bilərik. Prezident dəfələrlə Gəncə şəhərinə səfər edib və hər dəfə Gəncənin inkişafı ilə bağlı mühüm qərarlar verilib, bu şəhərin hərtərəfli inkişafına xidmət edən böyük layihələrin, ictimai əhəmiyyətli obyektlərin açılışında şəxsən özü iştirak edib. Biz son dərəcə bu diqqət-qayğıya görə qədirbilən gəncəlilər adından ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarıq.

Prezidentin çıxışlarında bildirilir ki, biz müharibədən çıxan ölkə olsaq da əsas gücümüz ermənilər tərəfindən talan edilmiş, dağıdılmış kənd və qəsəbələrin yenidən qurulmasına yönəlsə də, heç bir sosial sahə yaddan çıxmır, nəzərdə tutulan bütün layihələr uğurla icra olunur. Tam əminliklə bu qənaətə gəlmək olar ki, sakinlərin firavanlığı və asudə vaxtını səmərəli keçirməsi üçün füsunkar gözəlliyə malik bu istirahət mərkəzlərinin yaradılması sosial layihə olmaqla yanaşı, həm də dünyanın əksər ölkələrində hökm sürən iqtisadi böhran zamanı Azərbaycanda həyata keçirilən sosial siyasətin uğurla davam etməsindən xəbər verir.

**Zabit XƏLİLOV,**
**"Respublika".**